# Nəsrin poetikası və tənqidin meyarları

**Nuridə Muxtarzadə**
*Azərbaycan Dillər Universiteti*

**Rəyçilər:** filol.ü.e.d., prof. N.Ş. Şəmsizadə,
filol.ü.f.d., dos. Q.N. Süleymanova

**Açar sözlər:** tənqid, ədəbi proses, nəsr tənqidi, roman, estetik meyar
**Ключевые слова:** критика, литературный процесс, прозаическая критика, роман, эстетический критерий
**Key words:** criticism, literary process, prose criticism, novel, aesthetic criterion

Azərbaycan ədəbi tənqidinin tarixi folklor örnəklərindən, Xətib Təbrizinin "Şəhçilik məktəbindən" (XI əsr) başlanır, orta əsr risalələri və poeika kitabları, təzkirələr vasitəsi ilə inkişaf edərək XIX əsrin ortalarına — M.F. Axundzadənin yeni tənqid məktəbinə qədər davam edir. Lakin tənqidşünaslar onun mərhələvi inkişafını XX əsrin əvvəllərindən mətbuatın sürətlə inkişafı ilə bağlayırlar. (K.Talıbzadə "Azərbaycan ədəbi tənqidinin tarixi". Bakı, Maarif, 1984; N.Şəmsizadə. "Azərbaycan ədəbiyyatşünaslığı: Mərhələlər və konsepsiyalar"). Mətbuatın intensiv inkişaf etdiyi XX əsrin ilk onillikləri birinci tənqid mərhələsi hesab olunur. (F.B.Köçərli, S.Hüseyn, A.Sur). İkinci mərhələ sovet dövrünün təşəkkül mərhələsi (Ə.Nazim, M.Quliyev, B.Çobanzadə, Ə.Abid, H.Zeynallı, S.Mümtaz, A.Musaxanlı, M.K.Ələkbərli) Üçüncü tənqidi mərhələ 50-60-cı illər nəzəri-intellektual (M.Cəfər, M.Rəfili, H.Orucəli, M.Cəlal, K.Talıbzadə, B.Nəbiyev, Y.Qarayev və b.) Nəsr tənqidinin mərhələvi inkişafının əsasını qoyanlar H.Əfəndiyev, Q.Xəlilov, A.Hüseynov, A.Əfəndiyev, 70-80-ci illərdə isə yeni meyarlarla düşünən intellektual tənqidçilər nəsli yarandı. Bu nəslin başında Y.Qarayev dayanırdı. Həmin pleyadaya Elçin, A.Əfəndiyev, A.Hüseynov, Ş.Salmanov, bir qədər sonra isə H.Qasımov, T.Salamoğlu, T.Əlışanoğlu, B.Yusifli və b. daxildir.

Bu tənqid bütün sovet ədəbiyyatında 60-cı illər ədəbiyyatının yeni mərhələsini təşkil edirdi. Azərbaycanda yeni tənqidin ilk nümunələri kimi Akif Hüseynovun "Nəsr və zamanın hərəkəti", "Nəsr və zaman" monoqrafiyası, Asif Əfəndiyevin "Müdriklik səlahiyyəti" kitabı, Elçinin hekayə janrı "İmkanlarımız və iddialarımız" Muxtar İmanovun "Nəsirdə psixologizm" seçilən nümunələrindəndir. 70-80-ci illərdə nəsrin ən möhtəşəm janrı olan roman haqqında fundamental monoqrafiyalar yarandı. Qulu Xəlilovun "Azərbaycan romanının inkişaf tarixindən", Himalay Qasımovun "Azərbaycan romanının tipalogiyası", Təyyar Salamoğlunun "80-ci illər romanı" buna ən yaxşı nümunədir.

Azərbaycanda nəsr tənqidinin təməlində romanla bağlı bir mübahisəli problem var. Bu romanın mənşəyi problemidir. Bir sıra mütəxəssislər, məsələn Həsən Quliyev belə hesab edir ki, Azərbaycan romanının mənşəyi Nizaminin poemalarından başlayır. Lakin bəziləri – Qulu Xəlilov və Seyfulla Əsədullayev bu janrın ənənələrinin qədimliyindən bəhs etsə də ilk Azərbaycan romanı kimi M.F.Axundzadənin "Aldanmiş kəvakib" əsərini göstərirlər. Ədəbiyyat tarixində povest kimi gedən bu əsəri müəllif özü roman kimi xarakterizə etmişdir. Bu barədə konkret formalaşmış fikir yoxdur.

Nəsr tənqidinin əsas meyarları və metodoloji prinsipləri daha çox 60-illərdə elmi nəzəri mahiyyət kəsb etdi. Bu dövr nəsr tənqidində iki amil daha çox ön plana keçdi: 1. Konfliktsizlik nəzəriyyəsindən sonra, yəni 50-ci illərin sonu, 60-cı illərin birinci yarısında

(şəxsiyyətə pərəstiş ləğv edildikdən sonra Q.S.) Tənqiddə tənqid pafosu gücləndi; 2. Ədəbi tənqid öz estetik meyarlarını yeni yaranmış bədii mətnlərdən çıxış edərək yarandı. Bu isə tənqidin üslubunu dəyişdi, nəzəri intellektual gücünü artırdı və tənqidə cəmiyyətdə inam yaratdı. ədəbiyyata nəsr tənqidçisi kimi gəlmiş Akif Hüseynov adı çəkilən silsilə məqalələrində və onların əsasında yaranmış "Nəsr və zaman" kitabında konkret olaraq İsa Hüseynovun povestlərini, Sabir Əhmədovun romanlarını, Elçinin, Anarın, İsi Məlikzadənin əsərlərinin konkret əsərlərinin mətnlərini tənqid edərək, bu əsərlərə heç bir hazır nəzəri ölçülər tətbiq etmədi. Məhz mətnlər əsasında İsa Hüseynovun "Şəppəli", "Kollu koxa", "Saz", "Quru budaq", Sabir Əhmədlinin "Görünməz dalğa", "Dünyanın arşını", "Qan köçürmə stansiyası", Anarın "Ağ liman", Elçinin "Baladadaşın ilk məhəbbəti", İsi Məlikzadənin "Evin kişisi" və s. kimi orijinal əsərləri təkcə ideyasına görə yox, bədii poetik strukturuna, üslubuna və dilinə görə təhlil edərək, obyektiv nəticələrə gəlmişdi.

70-ci illərdə həm də nəsrin intensiv müzakirə olunduğu dövr idi. Bu müzakirə və mübahisələrə məhz ədəbi tənqid yol açırdı. Ədəbi–tənqid konfliktsizlik nəzəriyyəsini dondurub süstləşdirdiyi ədəbi–prosesi hərəkətə gətirdi. Bu dövrdə yazılmış əsərlər də öz bədii yeniliyi ilə belə mübahisələrə material verirdi. Mövlud Süleymanlının "Dəyirman" povesti çap olunduqdan sonra o zaman Yazıçılar İttifaqında geniş və amansız müzakirəsi keçirilmişdir. Bir sıra partiyalı tənqidçilər müəllifi sovet tənqidini təhrif etməkdə günahlandırırdılar.

İndi əlimizdə olan tənqid kitabları – Yaşar Qarayevin "Meyar şəxsiyyətdir", "Ədəbi üfüqlər", "Tarix yaxından və uzaqdan", Asif Əfəndiyevin "Müdriklik səlahiyyəti". Bəkir Nəbiyevin "Tənqid və ədəbi proses", Kamal Talıbzadənin "Sənətkarın Şəxsiyyəti" və b. kimi toplularda yer alan nəsr məqalələri o dövrün tənqid və nəsr münasibətləri haqqında əyani təsəvvür yaradır.

"Y.Qarayevin araşdırmalarını fərqləndirən problemə çağdaş baxış, nəzəri erudisiya, ədəbiyyatşünas cəsarəti, ədəbi faktı dəyərləndirmə bacarığı və s. keyfiyyətlər onun sonrakı yaradıcılığında artan xətt üzrə inkişaf edərək bu sahədə böyük bir nüfuz sahibinə çevirdi. Azərbaycan ədəbiyyatşünaslığında elmi həllini gözləyən araşdırmalar bundan sonra alimin nüfuz dairəsinə daxil olur və yalnız özünün deyil, bütövlükdə ədəbiyyatşünaslığımızın, ədəbi elmi düşüncəmizin simvoluna çevrilən "Realizm, sənət və həqiqət" fundamental monoqrafiyası ilə, bəlkə də çoxları üçün dar sahə hesab olunan ədəbiyyatşünaslıqda maksimal nəticə əldə etmənin əsasını qoyur" (1.)

Tənqidşünaslıq elmimizin əsasını qoymuş akademik Kamal Talıbzadə "Sənətkarın şəxsiyyəti" kitabında belə qənaətə gəlmişdi ki, tənqidin meyarlarını təkcə ədəbiyyatın bədii səviyyəsi ilə yox, həyatın tələbi ilə müəyyənləşdirmək lazımdır. "K.Talıbzadə Azərbaycan ədəbi tənqidinin inkişaf və təşəkkül tarixinin elmi mənzərəsinin yaradılması və ədəbi-estetik fikrin tarixi köklərini, milli ədəbiyyat tarixini dərindən öyrənilməsi üçün qədim və orta əsr Azərbaycan ədəbiyyatına müraciət edir. Bu dövrə aid maraq kəsb edən materialları ədəbi-estetik fikrini tədqiqat obyektinə çevirir. Özəl milli ədəbi ənənələrin yaranması və onların milli şüuru əks etdirmələrinə diqqət yetirir" (2.). "XX əsr Azərbaycan ədəbi tənqidi" monoqrafiyasının yazılmasına qədər alim "Ədəbi tənqidə diqqəti artıraq" (1954), "Tənqidçi və əbiyyatşünasların yeni nəsli" (1955), "Mübariz tənqidin gözəl nümunələri" (1959), "Tənqidimiz haqqında qeydlər" (1963) və s. məqalələrini yazıb dərc etdirmişdi. Ədəbi tənqidin müxtəlif məsələlərini əhatə edən, məzmunca rəngarəng olan bu məqalələr 1967-ci ildə "Tənqidimiz haqqında qeydlər" kitabında toplanıb nəşr edildi. Kamal Talıbzadənin həmin məqalələrində ədəbiyyatşünaslığın bu mühüm sahəsinə həssas tədqiqatçı münasibətini

görürük. Burada ədəbi tənqidin qarşısında duran problemlərdən, tənqidin və tənqidçinin başlıca vəzifələrindən bəhs edən müəllif müasir.

Kamal Talıbzadə Azərbaycan tənqidçisini belə görmək istəyirdi: “Tənqidçi nadir istedada, gözəlliyi, sənəti duya bilən estetik hisslərə, ədəbiyyatı sevən böyük bir qəlbə malik olmalıdır. Bütün bunlarla yanaşı, həqiqi tənqidçi dövrünün ən irəlidə gedən, geniş dünyagörüşünə sahib bir adam olmalı, dövrün hakim görüşlərini izah və inkişaf etdirməyi bacarmalıdır. Ancaq bu halda o, ədəbiyyata doğru istiqamət verər, tənqidi həqiqi nəzəri yüksəkliyə qaldıra bilər... Orada ki cəsarət yoxdur, orada həqiqi ədəbi tənqid də yoxdur” (3.).

Akademik Bəkir Nəbiyev “Tənqid və ədəbi proses” kitabında 60-cılar ədəbiyyatının yeni və ən əsas janrı olan miniatür povestləri təhlil edən geniş məqaləsində bu janrı romanla povest arasındakı, yeni bir forma hesab edir. Yeri gəlmişkən qeyd edək ki, 60-cı illərin ortalarında bütün dünyada elmi texniki tərəqqinin vüsətli inkişafı ilə bağlı belə bir fikir formalaşmışdır ki, guya artıq böyük həcmli romanlara ehtiyac yoxdur. Oxucunun bu romanları oxumağa nə zamanı, nə də hövsələsi var.

Leninqradda keçirilən beynəlxalq roman müşavirəsində Elmi Texniki İnqilab dövründə miniatür romana ehtiyac olacaq. Nümunə üçün Eston yazıçısı Enne Veetmanın miniatür romanları göstərilir.

Tənqidin meyarlarına təsir göstərən ədəbi-bədii hadisə ədəbi-prosesin və tarixin gedişatı sübut etdi ki, tənqidçilərin bu qənaəti yanlışdır. Elmi-Texniki İnqilab dövründə roman epopeyalara maraqlı bir ehtiyac meydana çıxdı. Bu zaman ədəbi ictimai mühitdə fakt diqqəti cəlb etdi: məhz ETİ-dövrünün alimləri göstərdilər ki, Enişteynin nisbilik nəzəriyyəsi yaranmasına rus yazıçısı M.F.Dostayevski səbəb olub. Bu münasibətlə də ETİ-ilə roman geniş mənada nəsr arasında bir uyarlıq meydana gəldi. Məlum olduğu kimi heç bir texniki inqilab insanın estetik tələbatını ödəyə bilməz. Bu mənada roman həmişə ədəbiyyatın aparıcı janrı olaraq, ədəbi prosesdə öz mövqeyini qoruyub saxlayır.

60-cı illər ədəbiyyatı məhz yeni meyarlar axtarışı baxımından ədəbi-tənqidə güclü stimul verdi. Bu dövrün digər mühüm hadisəsi nəsrdə hər xalqın öz mənşəyinə, kimliyinə, soykökünə, bir sözlə tarixi mövzuya müraciəti idi. Məhz tənqid yazıçıların diqqətini tarixi mövzulara yönəltdi. Bu iki səbəblə bağlı idi. Birincisi hələ sovet rejimi möhkəm idi onun qüsurlarını isə tənqid etmək qadağan idi. İkincisi müasir cəmiyyətin qüsurları həm tarixi planda verilirdi. Və tarixi mövzularla xalqı öz keçmişinə bağlamaq nisbətən mümkün idi.

Bu dövrdə diqqətəlayiq tarixi romanlar yazıldı. Doğrudur, ədəbi-prosesdə bu vaxta qədər M.S.Ordubadinin uzaq və yaxın keçmişimizdən bəhs edən “Qılınc və qələm”, “Dumanlı Təbriz”, “Bakı trilogiyası”, Y.V.Çəmənzəminlinin “Qan içində”, “Qızlar bulağı”, Ə.Abbasov “Zəngəzur”, əsərləri var idi. Lakin, 60-cı illərdə roman yaradıcılığı vüsət aldı və ədəbi-tənqiddə həm bu romanlarla həm də bu romanlarda təcəssüm olunan tarixlə məşğul olmağa məcbur oldu.

Bu romanlar sırasında İsa Hüseynovun “Məhşər”, Əzizə Cəfərzadənin “Bakı-1501”, “Şirvan trilogiyası”, Fərman Kərimzadənin “Xudafərin Körpüsü”, “Qarlı aşırım”, Əlisa Nicatın “Qızılbaşlar”, Elçinin “Mahmud və Məryəm”, “Ağ dəvə” və başqa əsərləri misal göstərmək olar. Bu əsərlərdə orta əsrlər tariximizin zəngin və ziddiyyətli mərhələləri öz əksini tapmışdır. “Məşhər” romanında İ.Nəsiminin dövründən və taleyindən, “Bakı-1501”, “Xudafərin körpüsü”, “Mahmud və Məryəm”, “Qızılbaşlar” romanında Səfəvilər dövlətinin və Şah İsmayıl Xətainin şanlı və faciəli taleyindən bəhs olunur.

Burada diqqəti cəlb edən maraqlı bir cəhət də var: Nəsrin tarixə müraciəti, tarixin geniş təcəssümü, ədəbi-tənqidin meyarlarını da genişləndirdi. Ədəbi-tənqid artıq 60-70-ci illərin

estetik meyarları və metodoloji prinsipləri ilə kifayətlənə bilmir: bədii ədəbiyyatda tarixilik problemi gücləndiyi kimi, ədəbi tənqiddə də, tarixilik prinsipi əsas metodoloji prinsipi kimi möhkəmlənir. Bu artıq 80-90-cı illərin ədəbi-proses hadisələri idi. Bu dövrdə Akif Hüseynov, Elçin, Yaşar Qarayev və Bəkir Nəbiyev tənqidçilik fəaliyyətinin kamillik dövrünü yaşayırdılar. Nəsr haqqında ən nüfuzlu sözü də məhz onlar söyləyirdilər. Bununla belə tarixin və ədəbi prosesin özü kimi tənqid də yeni nəsilləri formalaşdıraraq inkişaf erdirirdi.

70-ci illərin sonu 80-ci illərin əvvəllərində yeni intellektual tənqidçilər nəsli formalaşdı: Nadir Cabbarov, Kamal Abdulla, Vaqif Yusifli, Rəhim Əliyev, Şirindil Alışanov, Vilayət Quliyev, Nizaməddin Şəmsizadə bu nəslin aparıcı nümayəndələridir.

Vaqif Yusifli və Rəhim Əliyev poeziya ilə, Nadir Cabbarov və Vilayət Quliyev nəsr ilə, Nizaməddin Şəmsizadə və Şirindil Alışanlı nəzəriyyə ilə məşğul olurlar. Vilayət Quliyev və Muxtar İmanov tarixi nəsrdən və nəsrin psixologiyasını araşdırmışlar.

Bu arsenalla tənqid və nəsr yeni epoxaya – müstəqillik illərinə daxil oldu. Bu dövrdə də nəsrdə yeni əsərlər meydana gəldi. "Müstəqillik dövründə ədəbi tənqidimizin və milli ədəbi prosesin tarixinə yeni baxış zərurəti meydana çıxır. Bu mənada 1930-cu illər tənqidini, o dövr poeziya məsələlərini yeni təfəkkür işığında öyrənmək ədəbiyyatşünaslığın başlıca vəzifələrindən birinə çevrilir. Əgər biz indiki zamanda ədəbiyyatımızın tarixinə müasir ədəbiyyatşünaslıq düşüncəsi ilə yeni baxış sərgiləmək istəyiriksə, ilk növbədə, bu dövrün ədəbi tənqidinin bütün səciyyəvi xüsusiyyətlərini, metodoloji axtarışlarını, eləcə də bu dövr tənqidçilərinin poeziya məsələlərinə münasibətləri kontekstində hansı sosioloji və estetik yanaşmaları ortaya qoyduqlarını öyrənmək lazımdır" (4, 3).

Afaq Məsudun "İzdiham" və "Azadlıq" romanları, Elçinin "Bayraqdar", Anarın "Otel otağı", Kamal Abdullanın "Yarımçıq əlyazma", Aqil Abbasın "Dolu", Mövlud Süleymanlının "Erməni adındakı hərflər" bu dövrün ən yaxşı nümunələri hesab oluna bilər. Bu sənət nümunələrindən başqa müstəqilliyə keçid dövründə ədəbiyyatımızda bir sıra belletristika hətta bulvar romanları da yaranmışdı. Dövrün ədəbi tənqidi nə bədii cəhətdən mükəmməl olan əsərlərin, nə də belletristika nümunələrinin təhlilini və tənqidini verməyib. Buna səbəb təkcə tənqidin gücsüzlüyü deyil, tənqidçilərin müxtəlif ictimai fəaliyyət sahələrinə getmələridir. Adını çəkdiyimiz tənqidçilərin əvəzinə indi diletantlar gəlməyə başlayıb.

Bu mülahizələrdən sonra istər-istəməz belə bir suala cavab verməli oluruq: müasir tənqid və nəsr problemini küll halında necə qiymətləndirmək olar? Bəzii tənqidçilər bədii ədəbiyyatdan uzaq düşüb yaxud, nəsrlə məşğul olmaq həvəsini itirib. Əvəzinə ümumi nəzəri məsələlərlə məşğul olurlar. Bütövlükdə ədəbi proses müəyyən mənada durğunluq keçirir. Bu da tənqidin qarşısında belə bir sual qoyur: Nə etməli?!

**Məqalənin aktuallığı.** Tənqid ədəbi prosesdəki nəzəri-tarixi rolunun ayrı-ayrı ədəbi növləri və həmin növə daxil olan janrların təhlili vasitəsilə həyata keçirilir. Ona görə də ədəbiyyatşünaslıqda "nəsr tənqidi", "poeziya tənqidi", "dram və teatr tənqidi", "tənqidin tənqidi" kimi anlayışlar mövcuddur. Bu nəzəri anlayışlar şərti xarakter daşıyır. Bu tənqid formalarının estetik meyarları həmin janrların bədii-poetik xüsusiyyətləri ilə müəyyənləşir. Bu mənada nəsr tənqidi epik növün janrlarını tələbi əsasında formalaşır. Böyük şair A.S.Puşkinin məşhur bir deyimi var: "tənqid məşğul olduğu ədəbiyyatın bədii kamillik dərəcəsini əks etdirir". Məqalənin aktuallığı ad məhz bu ideyadan ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə Azərbaycanda nəsr tənqidinin təməlində romanla bağlı mübahisəli problemlər araşdırılır, müxtəlif vaxtlarda nəsr tənqidinin əsas meyarları və metodoloji prinsipləri göstərilir, nəsr tənqidinin əsas amilləri

nəzərdən keçirilir, nəhayət tənqidşünaslıq elminin inkişafında xidmətləri olmuş nasirlərin mülahizələri fikir süzgəcindən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də ədəbi tənqidçilər üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat

1. B. Məmmədov. Ədəbi-tənqidi fikrimizin patriarxı - Yaşar Qarayev. “525-ci qəzet”, 2014, 06 mart.
2. S. Şərifova. Kamal Talıbzadənin tənqidində ədəbi refleksiya. “525-ci qəzet”, 525-ci qəzet, 2015, 10 avqust.
3. F. Qaraoğlu. Tarixdə iz buraxanlar: Kamal Talıbzadə. “Xəbər” qəz., 2018, 1 mart.
4. A.N. Quliyeva. 1930-cu illər Azərbaycanın ədəbi tənqidinin poeziyaya estetik və ideoloji yanaşmalar. Bakı, 1917.

**Н. Мухтарзаде**

## Поэтика прозы и критери критики

## Резюме

Критика проводится путем анализа теоретической и исторической роли литературного процесса в литературном процессе и жанров, включенных в этот жанр. Поэтому литературная критика имеет такие взгляды, как «прозаическая критика», «критика поэзии», «драма и театральная критика», «критика критики». Эти теоретические концепции условны.

Эстетические критерии этих форм критики определяются художественно-поэтическими особенностями этих жанров.

**N. Muxtarzada**

## The poetics of the prose and the critics of criticism

## Summary

Criticism is carried out through the analysis of the theoretical and historical role of the literary process in the literary process and the genres included in that genre. Therefore, literary criticisms have such insights as “prose criticism”, “criticism of poetry”, “drama and theater criticism”, “criticism of criticism”. These theoretical concepts are conventional.

The aesthetic criteria of these criticism forms are determined by the artistic-poetic features of those genres.

**Redaksiyaya daxil olub:** 26.09.2018